2024, №1

# Yeni MTK bülleteni

GƏLƏCƏK BURADA BAŞLAYIR

✦

10 may 2024-cü il




Xəbər Bülleteninin əsas xəbərləri

Liderin izi ilə: Heydər Əliyev

Kitab icmalı: Atomik vərdişlər

Məktəbəqədər təhsil: Beynəlxalq Uşaqlar  Günü

İbtidai: Ingilis dili həftəsi

Orta məktəb: Yaddaqalan ingilis dili aylığı

Profil: Ali təhsil üzrə məsləhətçimizlə tanış olun

İmtahan təşvişini aradan qaldırmaq üçün tövsiyələr

Sülh bağımız

MTK, Gəlin "çürümə" haqqında danışaq

Musiqi qrupunun icmalı: My chemical romance

Valideynlər və şagirdlərin diqqətinə

MTK-da qarşıdan gələn təşəbbüslər

Təşəkkürlər

## MTK bülleteni yenidən sizinlə

Hörmətli MTK icması,

Bu əlamətdar gündə, Ümummilli lider Heydər Əliyevin həyat uğurlarını yad edərkən dəyərli məktəb icmamızı bizə qoşulmağa dəvət edirik. Yeni MTK xəbər bülletenini sizinlə bölüşməkdən böyük məmnunluq duyuruq.

Bu,  məktəb rəhbərlərimiz, müəllimlərimiz və şagirdlərimiz tərəfindən irəli sürülən təşəbbüsdür. Əsas məqsədimiz bizi beynəlxalq məktəb kimi inkişaf etdirən ən son yeniliklər, qarşıdan gələn fəaliyyətlər, layihələr və nailiyyətlər haqqında məktəb icmasını məlumatlandırmaqdır.

Bu buraxılışda siz yüksək potensiala və məktəb müxbirləri kimi maraqlı təcrübəni araşdırmaq həvəsinə malik şagirdlərdən ibarət olan redaksiya komitəmizin töhfələri və elanları ilə tanış ola bilərsiniz. Onlara İngilis dili koordinatoru Xədicə Cəfərova rəhbərlik edir.

Bölmə rəhbərlərinə, Ədilə Əliyevaya (Məktəbəqədər təhsil), Zülfiyyə Rəsulovaya (İbtidai məktəb) və Atabəy Quliyevə (Orta məktəb) son həftələr ərzində öz bölmələrində baş verənlər barədə məktəb icmasını məlumatlandırmaq üçün verdikləri töhfələrə görə təşəkkür edirik.

Bizi izləyin!

Müasir Təhsil Kompleksinin dərc etdiyi bu xəbər bülleteni rəsmi ünsiyyət kanallarımızdan biri olacaqdır. Mütəmadi olaraq oxumağınız və məlumatverici məzmunundan faydalanmağınız bu bülletenin uğurunu təmin edəcəkdir.

Bu təşəbbüs kommunikasiya sistemlərimizi təkmilləşdirmək məqsədilə kompleksin davamlı inkişafını dəstəkləyən birgə səyimizin nəticəsidir.

Sizə xoş mütaliə arzu edirik.
Hörmətlə,

Nelson Urreqo, PhD
Akademik məsələlər üzrə Məktəb rəhbəri

# Heydər Əliyev- İlham verən həyata hörmətlə

## Nərgiz Tağıyeva 7i2 sinif şagirdi



Ümummilli liderimiz, müasir Azərbaycanın memarı Heydər Əliyev 1923-cü il mayın 10-da anadan olub. Məktəbimiz Heydər Əliyevin şərəfinə adlandırıldığından bu münasibətlə xüsusi tədbir keçirdik.

Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda anadan olub, 2003-cü il dekabrın 12-də Ohayo ştatının Klivlend şəhərində vəfat edib. Naxçıvan pedaqoji məktəbini bitirib.

1939-cu ildə oranı bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsinə daxil olmuşdur. Heydər Əliyev 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında şöbəyə rəhbərlik etmiş, 1944-cü ildə isə Dövlət Təhlükəsizliyi Orqanlarına işə göndərilmişdir. Leninqrad və Moskva şəhərlərində təhsil almışdır. Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Sonra 25 il Dövlət Təhlükəsizliyi Orqanlarında çalışmışdır. Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini işləmiş, 1967-ci ildən komitənin sədri vəzifəsini tutub və general-mayor rütbəsinə qədər yüksəlmişdir.



1969-cu ildə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. O, bu vəzifədə olduğu müddətdə SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etmişdir. Heydər Əliyev 20 il SSRİ və Azərbaycan SSR Ali Sovetlərinin deputatı, 5 il SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışıb.



Heydər Əliyev 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar, yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılması tələbini qoydu.

Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışmışdır.

1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilən təsis qurultayında partiyanın sədri seçilmişdir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürdü və ondan sonra Azərbaycan rəhbərləri Heydər Əliyevi rəsmi olaraq Bakıya dəvət etməyə məcbur oldular. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, dünyasını dəyişənə qədər 10 il ölkəmizə rəhbərlik etdi.

Ümummilli liderimiz Heydər Əliyevi xalqımız daim sevgi, hörmət və ehtiramla yad edəcək.

Hər il olduğu kimi  bu il də Ümummilli liderin doğum gününə həsr olunmuş müxtəlif t dbirlər keçirilmişdir. 8 may 2024-cü il tarixində saat 11.30-da Akt zalında ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Liderin izi ilə qalib ol” adlı tədbir keçirildi. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) sədri Ülvi Mehdiyev Heydər Əliyevin şərəfli ömür yolundan, ölkəmizin müstəqilliyi uğrunda mübarizəsindən, tariximizi bilməyin əhəmiyyətindən danışdı və şagirdlərin suallarına cavab verdi.





# Kitab icmalı: Atomik vərdişlər

## Koroğlu Rəhimli 8R1 sinif şagirdi

Ən son oxuduğum kitab Ceyms Klirin “Atomik vərdişlər” kitabıdır. Bu, işini və həyatını yaxşılaşdırmağa çalışan bir insanın real həyat hekayəsinə əsaslanan bir kitabdır. Onun "Atomik vərdişlər" adlandırdığı dəyişikliklər kiçik dəyişikliklərdir, lakin çox yaxşı nəticələr verir. “Atomik vərdişlər” başlığının izahı budur ki, hər bir kiçik qərar, hərəkət və ya vərdiş həyatınızın yaxşılaşmasına və ya əksinə, pisləşməsinə səbəb ola bilər.




Kitab bizə acınacaqlı həyatı və çoxlu pis vərdişləri olan bir insanın hekayəsindən bəhs edir. Həmin insan depressiyaya düşmüşdü və heç bir dostu yox idi. Sonda başa düşdü ki, həyatını yaxşılaşdırmaq üçün nəyisə dəyişməlidir. O, yeni vərdişlər əldə etdi və qısa müddətdən sonra həyatının yaxşılaşmasına səbəb olan çoxlu yaxşı vərdişlərə yiyələndi. O, çoxlu dostlar qazandı və onlara yaşadıqları həyatı yaxşılaşdırmaq üçün bu kitabı yazmağı qərarlaşdırdı. Bu kitab milyonlarla insanı həyatlarını yaxşılaşdırmağa sövq etdi.

Qeyd etməliyəm ki, bu kitabın sayəsində mən də çoxlu yaxşı vərdişlərə yiyələndim. Hər kəsə bu kitabı oxumağı israrla tövsiyə edirəm.

# Məktəbəqədər bölmə:
# Beynəlxalq Uşaqlar Günü
## Məktəbəqədər təhsil pilləsi üzrə rəhbər- Ədilə Əliyeva

23 Aprel Beynəlxalq Uşaqlar Günü münasibətilə Məktəbəqədər müəssisəmizdə keçirdiyimiz əyləncəli tədbiri sizinlə bölüşməkdən böyük məmnunluq duyuruq.
Bu tədbir hər bir uşağın unikallığını və əhəmiyyətini qeyd etməyə həsr olunmuş gülüş, əyləncə və mənalı fəaliyyətlərlə dolu idi. Balacalarımız müxtəlif yaradıcılıq işlərində iştirak edərək, rəssamlıq, sənətkarlıq və hekayələr vasitəsilə öz bədii istedadlarını kəşf etdilər. Onların sonsuz yaradıcılığının və təxəyyülünün şahidi olmaq ürəkaçan idi.

Uşaqların hərtərəfli inkişafına uyğun olaraq, müxtəliflik, xeyirxahlıq və dostluq kimi mövzulara diqqət yetirən fəaliyyətlər təşkil etdik. Günəşli hava uşaqların oyunlardan, musiqidən və fiziki fəaliyyətlərdən həzz almaları üçün mükəmməl imkan yaratdı. Bundan əlavə, biz uşaqlara ləzzətli qəlyanaltılar və şirniyyatlar təqdim edərək, onlar üçün günü daha da yaddaqalan etdik.

Dəyərli övladlarına qayğı göstərmək imkanını bizə etibar etdikləri üçün bütün valideynlərə minnətdarlığımızı bildirmək istəyirik. Sizin dəstəyiniz və iştirakınız bizim üçün əvəzolunmazdır və biz bu səyahəti birlikdə davam etdirməyi səbirsizliklə gözləyirik.














# Kitab həftəsi

Aprelin 29-dan mayın 3-dək Məktəbəqədər Təhsil Pilləsində keçirilən Kitab Həftəsinin təfərrüatlarını sizinlə bölüşməkdən məmnunuq. Kitab həftəsi fəaliyyətimizi şagirdlər arasında kitab mübadiləsi ilə başladıq. Hər bir şagird evdən kitab gətirmək və dostunun kitabı ilə dəyişmək imkanı qazandı. Onlar yeni hekayələr kəşf edərkən üzlərindəki sevinci görmək ürəkaçan idi.

Həftənin ən maraqlı məqamlarından biri də bizim ovsunlu Kostyum Paradımız idi. Şagirdlər sevimli kitab personajları kimi geyinərək rəngarəng obrazlar yaradıb hekayələrin sehrini canlandırdılar.

Kitab həftəsini rahat Pijama günü ilə yekunlaşdırdıq. Şagirdlər rahat pijama paltarlarında gəldilər, birlikdə yorğan və yastıqlara sarılaraq bizi xəyallar diyarına aparan hekayələrdən, laylalardan həzz aldılar. Kitab həftəsi boyunca göstərdikləri həvəs və iştiraka görə şagirdlərimizlə qürur duyuruq.

Bu günün uğurlu keçməsində göstərdiyi dəstəyə görə bütün valideynlərə və əməkdaşlara təşəkkür edirik!

# Müəllimlərin Assambleyalarda çıxışı

İstedadlı müəllimlərimizin heyranedici çıxışlar vasitəsilə hekayələri canlandırdığı son assambleyamız zamanı əldə etdiyimiz füsunkar təcrübəni sizinlə bölüşmək bizə xoşdur. Animasiyalı jestlərdən tutmuş ifadəli səslərə qədər müəllimlərimiz dinamik çıxışları ilə tamaşaçıları ovsunladılar. Öyrənməyi sevincli və yaddaqalan təcrübəyə çevirdiklərinə görə fədakar müəllimlərimizə ürəkdən təşəkkürümüzü bildiririk. Onların nağıl danışmağa olan həvəsi təkcə əyləndirmir, həm də şagirdlərimizi öyrədir və ruhlandırır, onların kəşf və inkişaf səyahətlərinə qalıcı təsir bağışlayır. Məktəbəqədər Təhsil Pilləsində hekayə və yaradıcılığa maraq yaratmaq üçün gələcəkdə daha zəngin təcrübələr və maraqlı fəaliyyətlər planlaşdırırıq.









# İngilis dili həftəsi
## İbtidai Məktəb Rəhbəri Zülfiyyə Rəsulova

Əziz valideynlər,

Məktəbimiz əyləncə dolu İngilis dili həftəsini başa vurdu!
Şagirdlər sinif qapılarını bəzədilər, qeyri-adi yerlərdə oxumağa cəhd etdilər, guşələr hazırlayıb nümayiş etdirdilər, kartofdan personajlar hazırladılar, hekayə dioramaları yaratdılar, ən gülməli zarafatları necə söyləməyi öyrəndilər və hətta “ən səliqəli əl yazısı” müsabiqəsində də iştirak etdilər!

Şagirdlərimizi belə yaradıcı və maarifləndirici fəaliyyətlərə cəlb edən müəllimlərimizə minnətdarlığımızı bildiririk. Biz gələcəkdə daha maraqlı tədbirlər planlaşdırmağı səbirsizliklə gözləyirik.

Yeniliklər və daha maraqlı fəaliyyətlər üçün bizi izləyin! Davamlı dəstəyiniz üçün təşəkkür edirik!






# Ailə oyunu vaxtı

Biz məktəbdə şagird və valideynlər arasında sıx bağ yaratmaq üçün “Ailə Oyunu Vaxt”larını təşkil edirik. Bu fəaliyyət vasitəsilə ailələr öz övladlarının sinifləri ilə daha sıx əlaqə saxlamaq və xüsusi anları bölüşmək imkanı əldə edirlər.
Bu yaxınlarda 4A və 3B sinif valideynlərinin birgə fəaliyyəti baş tutdu. Şagirdlər və valideynlər yarım gün ərzində əyləncəli fəaliyyətlər və unudulmaz xatirələr yaratmaq üçün bir araya gəldilər. Ailələr birlikdə müxtəlif fəaliyyətlərdə iştirak edir və bir-birilərini əyləncəli fəaliyyətlərə sövq edərək zövq alırdılar. Onlar sevinc və əyləncə dolu vaxt keçirdilər. İştirak edənlər arasında müsbət enerjinin və birlik hissinin şahidi olmaq ürəkaçan idi.
Ailə Oyunu Vaxtlarının yaddaqalan təcrübəyə çevrilməsində iştirak edən bütün valideynlərə təşəkkür edirik.





# İbtidai sinif şagirdlərinin nailiyyətləri

Aprelin 19-u və 20-də Türkiyənin Antalya şəhərində keçirilən “Robotex” final turnirində ibtidai sinif şagirdləri diqqətəlayiq uğur əldə ediblər. İştirak edən 5 komandadan 3-ü birinci, qalan 2 komanda isə ikinci yeri qazanıb.

## Valideyn Dəstəyinin Qiymətləndirilməsi:

Son Valideyn- Müəllim görüşlərində iştirakınıza görə, əziz valideynlər, Sizə ürəkdən təşəkkür edirik. Övladınızın təhsilinə göstərdiyiniz maraq təqdirəlayiqdir və iştirakınız bizim üçün qiymətlidir. Biz birlikdə onların uğuru üçün möhkəm bünövrə qoyuruq.

Nəzərinizə çatdırmaq istərdik ki, biz son bir neçə ay ərzində İbtidai bölmədə “Ailə Dəstəyi Vaxtı” sessiyalarını təşkil edir və daha çox valideyni bizə qoşulmağa dəvət edirik. Valideyn və şagirdlər üçün ayrılmış bu müddət şagirdlər və onların ailələri üçün dəstəkləyici mühit yaratmaq məqsədi daşıyır.

Bu sessiyalar zamanı komandamız sizə dəstək təklif etmək, suallarınızı cavablandırmaq və şagirdlərimizin xeyrinə sizinlə əməkdaşlıq etmək üçün hazır olur. Biz inanırıq ki, güclü valideyn-məktəb əməkdaşlığı şagirdlərin uğuru üçün vacibdir və sizin onların təhsil yolunda iştirakınızı yüksək qiymətləndiririk.

Gəlin əl-ələ verərək onlar üçün əla təhsil mühiti yaratmağa davam edək!







# Orta təhsil pilləsi:
# Yaddaqalan ingilis dili aylığı
## Orta təhsil pilləsinin rəhbəri Atabəy Quliyev

Aprel ayında maraqlı tədbirlərlə dolu öyrədici və əyləncəli ingilis dili ayını qeyd etdiyimizi sizə bildirməkdən məmnunuq. Bütün bölmələrdən olan şagirdlərimiz mütəlif oyunlarda, Spelling Bee və Jeopardy kimi viktorinalarda iştirak etdilər, əsərlər səhnələşdirdilər və şeir gecəsindən zövq aldılar.

25 aprel tarixində şagirdlərimiz görkəmli Azərbaycan dramaturqu M.F.Axundovun yazdığı "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadüküni-məşhur" tamaşasını ingilis dilində ifa etdilər.

Tamaşanın quruluşçu rejissorları ingilis dili müəllimlərimiz İradə Əliyeva və Xədicə Cəfərovadır.

Komediya 1850-ci ildə yazılmasına baxmayaraq, qoyduğu problem, köhnəliklə yeniliyin qarşıdurması daim aktual olaraq qalır. Əsərdə cəhalət və nadanlıq tənqid olunur, elm və maarifçi ideallar isə təbliğ olunur. Şagirdlərimiz böyük dramaturqumuzun çox sevilən əsərini səhnələşdirməklə ədəbi irsimizə verdiyimiz dəyəri bir daha nümayiş etdirdilər.

Tamaşanın aktyor heyəti: Koroğlu Rəhimli (Hatəmxan ağa), Dəniz Tağıyeva (Şəhrəbanu xanım), Jasmin Saramanova (Şərəfnisə), Qabil Kərimli (Şahbaz), Vaqif Hacıyeva (Müsyö Jordan), Polad Fərhad (Məstəli şah), Aida Zeynalova (Gülçöhrə) ), Nəzakət Əliyeva (Xanpəri), Mədinə Rzalı (fransız qızı və cin), Fidan İbrahimzadə (cin) və Mələk Məmmədova (cin).





TAMAŞAYA BURADAN BAXA BILƏRSİNİZ:

# 9 May Qələbə gününə həsr olunmuş assambleya

Mayın 8-də tarix müəllimi Mark Devid Faşizm üzərində Qələbə günü şərəfinə assambleyada şagirdlərlə maraqlı söhbət apardı. Onun çıxışından bəzi məqamları təqdim edirik:

**Azərbaycan əsgərlərinin şücaəti:** Biz Azərbaycan əsgərlərinin Biləcəri avtovağzalına gedərkən göstərdikləri şücaəti yad etdik.

**Cəsarət medalları:** igidliyə görə verilən medalların əhəmiyyəti haqqında düşündük.

**Həzi Aslanovun şərəfinə:** 1945-ci il aprelin 18-də Həzi Aslanovun qəhrəmanlığını yad etdik.

Assambleya sülh və əməkdaşlığın vacibliyini vurğulayan təslim sənədi üzərində fikir mübadiləsi ilə yekunlaşdı.

Dinc gələcəyə can ataraq keçmişə hörmət edək.




## Şahmat Turniri

Kompleksimizdə Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş şahmat turniri uğurla başa çatdı. Turnirdə Kompleksin İbtidai və Orta məktəb şagirdləri öz məntiqi təfəkkür və bacarıqlarından məharətlə istifadə edərək əsl yoldaşlıq yarışı nümayiş etdirdilər. İştirak edən bütün şagirdlərimizə təşəkkür edir və qaliblərə növbəti yarışlarda uğurlar arzulayırıq!



## Qarabağ məktəblərinə uğurlu səfər

Bu günlərdə MTK komandası “Alfa Generation and Beyond” layihəsi çərçivəsində Qarabağın Füzuli və Zəngilan məktəblərində olub, həm şagirdlər, həm də müəllimlər üçün təlim və seminarlar keçirib. Səfər zamanı komandamız şagird və müəllimlərlə müzakirələr aparmış, BMT-nin 2030-cu ilə qədər həyata keçirilməsi planlaşdırılan 17 Dayanıqlı İnkişaf Məqsədi və Uşaq Hüquqları Konvensiyasına dair vacib təlimlər keçirmişdir. Bu sessiyalar həm şagirdlərin, həm də müəllimlərin təhsil təcrübəsini və bacarıqlarını artırmaq, davamlı öyrənmə və inkişaf mədəniyyətini inkişaf etdirmək məqsədi daşıyırdı.





# Profil: Cənab Nelson Urreqonun ali təhsil üzrə məsləhətçi Aysel Əliyeva ilə müsahibəsi

NU-Salam, Aysel xanım! MTK ictimaiyyətinin ali təhsil üzrə məsləhətçimizlə tanış olması üçün bu dəvəti qəbul etdiyinizə görə sizə təşəkkür edirik! Necəsiniz?

AA- Salam, cənab Nelson! Burada olmaqdan məmnunam və dəvətə görə sizə təşəkkür edirəm. Səmimi desəm, sizə müsahibə verdiyim üçün çox həyəcanlıyam.

NU-Gəlin başlayaq! Haralısınız?
AA - Mən əslən Bakıdanam və doğulduğumdan bəri burada yaşayıram.

NU-İngilis dilində kifayət qədər səlis danışırsınız, dili haradan öyrənmisiniz?
AA- Deməli, mən ingilis dilini məktəbdə öyrənməyə başladım və universitetdə ingilis dili üzrə bakalavr təhsilimi bitirdim. Müxtəlif mühitlərdə ingilis dilini öyrənməyə çalışdım. Məktəbdə və universitetdə formal təhsillə yanaşı, ingilis dilini ana dili kimi danışanlarla fəal şəkildə söhbət edirdim, dil mübadiləsi proqramlarında iştirak edirdim və kitab oxumaq, filmlərə baxmaq və musiqi dinləməklə özümü ingilisdilli mühitlərə inteqrasiya edirəm.

NU-MTK-da neçə ildir işləyirsiniz?
AA- Keçən ilin avqust ayından MTK-da işləyirəm.

NU- Ali təhsil üzrə məsləhətçinin şagirdlərimizə təklif etdiyi xidmət nədən ibarətdir?
AA- Yüzlərlə universitet var və düzgün kollec seçmək çətin məsələdir. Bir universitet məsləhətçisi olaraq, şagirdlərə universitetləri araşdırmaqda və sonra diqqətlərini son qərara cəmləmək üçün universitetlərin siyahısını qısaltmaqda onlara kömək edirəm. Daha dəqiq desək, bu həm şagirdlərin, həm də valideynlərin övladlarının akademik güclərini və üstünlüklərini müəyyən etmək üçün müzakirələrə cəlb edilməsini, şagirdləri universitetlərə müraciət prosesində istiqamətləndirməyi, onların ən yaxşı seçimlərini inamla davam etdirmək üçün ən uyğun informasiya ilə təmin olunmasını nəzərdə tutur.

NU- İşinizdən zövq alırsınız?
AA - Mən universitet məsləhətçisi rolumdan həqiqətən həzz alıram. Şagirdləri akademik səyahətlərində dəstəkləmək və onlara rəhbərlik etmək mənə böyük məmnunluq hissi gətirir.

NU-Şagirdlər sizi məktəbdə harada tapa bilər?
AA- Mən birinci mərtəbədə, Qəbul şöbəsində otururam.

NU-Ali təhsil üzrə məsləhətçi rolunuza necə hazırlaşdınız?



AA- Mən işimə universitet saytlarını və bakalavr proqramının tələblərini hərtərəfli tədqiq etməklə başladım.
Göründüyü kimi, hər bir universitetin öz qəbul tələbləri var. Sonra UCAS və müxtəlif universitetlərin təşkil etdiyi virtual vebinarlara qatıldım. Ən əsası isə, mən vaxtaşırı təhsil yarmarkalarına baş çəkir, son yeniliklərdən xəbərdar olmaq, şagirdlərə faydalı olmaq və onlarakömək etmək üçün universitet nümayəndələri ilə şəxsən görüşürəm.

NU-MTK-da keçirdiyimiz son universitet yarmarkaları və tezliklə keçiriləcək yarmarkalar haqqında bizə məlumat verə bilərsiniz?
AA- MTK bu yaxınlarda təhsil sərgisi keçirdi və bir sıra nüfuzlu beynəlxalq universitet nümayəndələri şagirdlərimizlə şəxsən görüşdülər və xaricdə təhsil, təhsil haqları, qeydiyyat prosedurları haqqında məsləhət və məlumat verdilər. Bundan əlavə, mayın 16-da Sabançı universitetinin nümayəndələrinin səfəri gözlənilir.
Ümumiyyətlə, oktyabrın 10-da Kompleksimizdə 30 universitetin iştirakı ilə beynəlxalq yarmarkanın keçirilməsi gözlənilir.
NU-Biz ümid edirik ki, şagirdlərimiz belə mühüm xidmətdən mütləq yararlanacaqlar. Nəhayət, kollec və universitetlərdə həyata keçirilən rahat bir qəbul prosesi fərq yaradacaq və məzunlarımızın gələcəyində həlledici rol oynayacaq. Sizi daha yaxından tanımaq və uğurlarınızın arxasında dayanan rol modelinizi tanımaq üçün belə bir sualım var: "Sizə ilham verən kitab və ya film varmı? "
AA- Düzünü desəm, roman oxumağı çox sevmirəm, əslində, demək olar ki, oxumuram. Keçən yay mən fərqli bir şey sınamaq istədim və bu P.Koelyonun "Kimyagər" əsərini oxudum. Hekayə xəzinə tapmaq arzusunda olan gənc çoban haqqındadır. Mən deyərdim ki, bu kitab gizli mesajlarla doludur. Daha dəqiq desək, arzularımızın arxasınca getsək, özümüzə inansaq və inandıqlarımızdan əl çəkməsək, azrularımız taleyimizə çevriləcək.

NU-Sizcə, hansı cəhətləriniz sizə həyatda çətinliklərin öhdəsindən gəlməyə kömək edib?
AA- Çətin anlarda pozitiv qalmaq və özümə inanmaqdan əl çəkməmək deyərdim.

NU-Gənclərimizə məktəbdən sonrakı həyatda uğur qazanmaq üçün hər hansı bir mesaj və ya tövsiyəniz varmı?
AA- Şagirdlərə yaxşı oxumağı və diqqətlərini uzunmüddətli hədəflərinə yönəltməyi tövsiyə edərdim.

NU-Aysel xanım, səmimi cavablarınız üçün sizə təşəkkür edirik! MTK ictimaiyyəti adından sizə işinizdə və gələcək layihələrinizdə uğurlar arzulayırıq!
AA- Bu müsahibə üçün cənab Nelsona təşəkkür etmək istəyirəm. Açığını deyim ki, müsahibənin əvvəlində özümü həyəcanlı hiss edirdim, amma sonra sizin sayənizdə özümü çox rahat hiss etdim. Qarşıdan gələn müsahibələri səbirsizliklə gözləyirəm!:)

## Yuxarı sinif şagirdlərimizin uğurları ilə qürur duyuruq!







## İmtahan təşvişini aradan qaldırmaq üçün tövsiyələr
### Leyla Qasımova, 10i sinif şagirdi

İmtahanlar stress və narahatlığa səbəb ola bilər. Bunu aradan qaldırmağın bir çox yolu var. İmtahanlarını rahat şəkildə verməyinizə kömək edəcək bəzi məsləhət və tövsiyələr:

* Erkən başlayın. İmtahandan bir neçə həftə, hətta aylar əvvəl öyrənməyə başlayın.
* Fasilə verin. Öyrənərkən əsəbləşməmək üçün tez-tez qısa fasilələr verin.
* Sakit olun. Dərindən nəfəs almaq texnikaları stresdən xilas edir.
* Kifayət qədər yatın. İmtahan zamanı yorğunluğun qarşısını almaq üçün yuxu çox vacibdir.
* Hədsiz dərəcədə narahatlıq keçirirsinizsə, bu barədə dostlarınız və ya ailənizlə danışın.
* Özünə inanın. Siz bacaracaqsınız!

# Sülh bağımız

## Nuray Bayramova və Suri Hüseynova 6i2 sinif şagirdləri

Qayğıkeş məktəbimiz bizim üçün gözəl və hüzur dolu yaşıllıq, Sülh bağı yaradıb. İstirahət üçün nəzərdə tutulan bu dinc və kölgəlik ərazi, həmçinin sinif mükafatları üçün də (məs., piknik, stolüstü oyunlar, əyləncəli fəaliyyətlər) istifadə oluna bilər!

Bura həmçinin, futbol meydançasını və müxtəlif oyunları izləmək üçün çox əlverişli yerdir. Sülh bağı həqiqətən də ürəyimizə rahatlıq gətirir.

Biz ekosistemimizi və Sülh bağımızı daha da böyütmək üçün rəngarəng çiçəklər və müxtəlif ağaclar əkirik. Hər bir şagirdin və zəhmətkeş müəllimin kitab oxuması üçün bağçanın ortasında rahat yer var.

Bəzən bağımıza pişik, quş və kəpənək kimi qonaqlarımız gəlir. Şagirdlərimizin əksəriyyəti sülh bağından zövq alır, çünki bağ elə adı kimi sülh, rahatlıq, sakitlik gətirir. Ümid edirik ki, bu xəbər bülleteni Sülh bağına qarşı xoş hislərinizi daha da artıracaqdır.

Məktəb icmasının Sülh bağı barədə fikirlərinə aşağıdakı videoda baxa bilərsiniz:



# MTK Gəlin “kompost/çürümə” haqqında danışaq
## Leyla Məmmədova və Bella Bülbül 6i1 şagirdləri



Məktəb rəhbərliyi və kimya-biologiya müəllimləri Miss Blake, Miss Qumru və Miss Devon bu layihənin təşkilatçılarıdır. Planetimizin təmiz və gözəl olmasına kömək etmək üçün kompost qutuları təşkil etdik. Əgər yeməkləri zibil qutusuna atsanız, bir çox hallarda o, zibilliyə gedər. Dünyanın bir çox yerində zibil plastik, şüşə və çürüyə bilən qruplara ayrılır. Siz planetimizə hər hansı bir şəkildə kömək etmək istəyirsinizsə, öz kompostunuzu hazırlamağa çalışın. Özünüz kompost qabı hazırlamaq istəyirsinizsə, rütubətli və çox isti olmayan bir yer tapın və hər gün yeməkdən sonra qalıqları ora qoyun. Bunu çöldə etmək daha yaxşıdır, çünki xoşagəlməz bir qoxu yarana bilər.

# Musiqi qrupunun icmalı: My chemical romance (MCR)
## Duru Asılıskender 8i2 sinif şagirdi

Ola bilər ki, siz onlar haqqında eşitmisiniz, bəlkə də yox. Ola bilsin ki, siz onların adını eşitməmisiniz, amma şübhəsiz ki, mahnılarından ən azı birinə qulaq asmısınız.

Bu musiqi qrupu 2001-ci ildə Nyu-Cersi ştatında rok qrupu olaraq yaradılmış, ilkin olaraq dörd üzvlə debüt etmişlər: vokalçı Gerard Way; basçı Mikey Way; keçmiş nağaraçı Matt Pelissier və aparıcı gitaraçı Ray Toro, daha sonra ritm gitaraçısı Frank Iero. Qrupun basçısı Mikey Barnes & Noble mağazasında işləyərkən "Ecstasy: Three Tales of Chemical Romance" adlı kitabı gördükdən sonra qrupun adını düşünüb.

Onların debüt rekordu olan 'Mən sənə gülləmi gətirdim, sən mənə sevgini gətirdin' qrupun yaranmasından cəmi on ay sonra buraxılıb. Bu albomun vokalları daha kəskin və sərt səsə malikdir, çünki Cerard Vey bu zaman fiziki və psixi sağlamlıq problemlərindən əziyyət çəkirdi.

Zirzəmilərdə kiçik konsertlər verən kiçik və naməlum bir qrup olaraq başlayan qrup, 2004-cü ildə ikinci albomu olan "Three Cheers for Sweet Revenge" ilə tez bir zamanda tanındı. Alternativ rok səhnəsindəki yeni populyarlıqları ilə onlar 2004 və 2005-ci illərin yayında məşhur "Warped Tour" qastrol musiqi festivalında çıxış etdilər.

Konsertlərindən daha çox izləyici qazanaraq, onlar 2006-cı ildə bütün zamanların üçüncü və ən uğurlu albomu olan "The Black Parade"ı buraxdılar. Bu alboma "Welcome to the Black Parade", "Famous Last Words" və “Teenagers” kimi tanınan treklər daxildir. Konseptual albom olaraq, Qara Paradın hekayəsi itki, faciə, xəstəliklər, qəbul və ölümdən sonrakı həyat mövzularına toxunur. MCR bu albomun yayımlanmasından dərhal sonra güclü fanat kütləsi qazandı.

Qara Paradddan dörd il sonra qrup "Danger Days: The True Lives of the Fabulous Killjoys" adlı final albomunu buraxdı. Bu albom digər albomlarından daha yumşaq olub pop janrına çox yaxındır. Buna baxmayaraq, albom rəngarəng estetik və cazibədar hekayəsi və personajları ilə hələ də bir çox pərəstişkarlarının qəlbində xüsusi yer tutur.

Bu qrup haqqında nə düşünməyinizdən asılı olmayaraq, danılmaz faktdır ki, bu qrup 2000-ci illərdə musiqi sənayesinə böyük təsir göstərib və bir çox insana hiss edib ifadə edə bilməkdiləri hislərini musiqi ilə duyurmaqla onlara özünə inam hissi bəxş edib.

# Valideyn və şagirdlərin qiqqətinə!

## Məktəbəqədər təhsil pilləsi:

Maraqlı ekskursiyalar: Məktəbəqədər pillənin Transition qrup şagirdləri Heydər Əliyev Muzeyinə səfər edəcək və Sosial Elmlər kurikulumumuzun bir hissəsi olaraq Heydər Əliyevin həyatı və xidmətləri haqqında öyrənəcəklər. Heydər Əliyev Muzeyi Azərbaycan tarixinin görkəmli şəxsiyyəti Heydər Əliyevin həyat və irsinə heyranedici baxış təqdim edir. Səfər zamanı şagirdlərimiz Heydər Əliyevin həyatı, nailiyyətləri və yaşadığı dövrün tarixi kontekstini əks etdirən müxtəlif eksponat, artefakt və interaktiv stendlərlə tanış olacaqlar.

## İbtidai təhsil:

Mayın 22-dən iyunun 7-dək ibtidai siniflərdə II Böyük Summativ Qiymətləndirilmə keçiriləcəkdir.
Bu qiymətləndirmələr semestr boyu övladınızın öyrənmə səviyyəsinin ölçülməsində mühüm rol oynayır. Şəffaflığı və hazırlığı təmin etmək üçün övladınızın sinif rəhbəri tezliklə imtahan cədvəlini göndərəcək, imtahanın formatı və xüsusi təlimatları barədə sizə ətraflı məlumat verəcəkdir. Hər hansı bir sualınız olarsa, övladınızın müəllimi ilə əlaqə saxlamaqdan çəkinməyin.

Mayın 20-dən etibarən ibtidai məktəbimizdə qarşıdan gələn “Açıq qapı” günlərini elan etməkdən böyük məmnunluq duyuruq. Bu Açıq Qapılar sizə məktəb icmamızın canlı atmosferinə qərq olmaq və övladınızın təhsil səyahətinə daha yaxından baxmaq üçün gözəl fürsət təqdim edir.

Bu zənginləşdirici tədbirlərə hazırlaşmağınız və iştirak etməyiniz üçün Açıq qapı günləri haqqında ətraflı məlumat tezliklə sizinlə paylaşılacaq. Sizi salamlamağı və öyrənmə sevincimizi sizinlə bölüşməyi səbirsizliklə gözləyirik.

## Orta təhsil:

**15 May:** “Danışan kukla” tamaşası: Sinif müəllimi Şəhribanu xanımın rəhbərliyi ilə 6i2 sinif şagirdlərimiz assambleya zamanı Abdulla Şaiqin "Danışan kukla" tamaşası ilə öz istedadlarını səhnədə nümayiş etdirəcəklər. Valideynlərimizi bu gözəl yaradıcılıq və komanda işinin şahidi olmağa dəvət edirik.

**22 may:** Azərbaycan Kinematoqrafiyası tədbiri: Azərbaycan kinematoqrafiyasının füsunkar dünyasına qərq olmağa hazırlaşın! Bu tədbir Günay xanım və onun 6i3 sinif şagirdləri tərəfindən hazırlanır. Kino gecəsi vasitəsilə şagirdlərimiz Azərbaycan mədəniyyətinin incilərini kəşf edəcəklər.

8 və 10-cu sinif valideynləri üçün fərdi iclaslar: Sizə bildirmək istərdik ki, övladlarının IGCSE və Advanced Level fənn seçimlərini müzakirə etmək üçün 8-ci və 10-cu sinif valideynləri ilə təkbətək görüşlər keçirəcəyik.

**2026 IGCSE Seçimləri Kitabçası.pdf**
**2025-2026 AS_ALevel Seçimləri Kitabçası.pdf**

Edinburq Hersoqu Mükafatı Orta məktəbdə kəşfiyyat və tətbiq prosesindədir... tezliklə daha çox məlumat üçün bizi izləyin.

Elm sərgisi məktəbimizdə 30 və 31 may tarixlərində keçiriləcəkdir.

Böyük summativ qiymətləndirmələr 27.05.2024-cü il tarixindən 07.06.2024-cü il tarixinədək davam edəcəkdir.

10.06.2024-14.06.2024 arası tarixlərdə valideyn-müəllim iclasları keçiriləcəkdir.

# MTK-da qarşıdan gələn təşəbbüslər

Uğurlu tədris ili başa çatmaq üzrə olsa da, MTK-nın rəhbərliyi, müəllimlər və inzibati heyət mənalı öyrənmə təcrübəsi qazanmaq üçün yorulmadan çalışmaqda davam edirlər. Məktəb Beynəlxalq Məktəblər Şurası kimi nüfuzlu təşkilatlardan akkreditasiya almaq üzərində işləyir.

Biz "Təhlükəsizlik" və "Uşaqların müdafiəsi" siyasətlərimizi gücləndirmək və 21-ci əsr üçün intellektual çağırışları, qlobal məlumatlılığı və bacarıqları inkişaf etdirən sağlam kurrikulumun formalaşdırılmasını hədəfləyirik. Strateji planımız 2026 sistemlərimizi və təcrübələrimizi ən ciddi beynəlxalq standartlara uyğunlaşdırmağa həsr olunub.

Biz ailələrimizlə əməkdaşlıq etməyin vacibliyini anlayırıq. Məktəb olaraq, MTK Valideynlər Assosiasiyası və Məzunlar Assosiasiyaları qurmaq niyyətindəyik və bu işlərin valideyn və məzunların təşəbbüsü ilə həyata keçirilməsi və bu qurumlara rəhbərlik etmək üçün ideya və təkliflərinizi səbirsizliklə gözləyəcəyik. Bu məqsədlə Akademik məsələlər üzrə Məktəb Rəhbəri ilə əlaqə saxlamağınız xahiş olunur: nelson.urrego@mtk.edu.az.

## Oxuduğunuz üçün təşəkkür edirik!


Çəkdikləri zəhmət və fədakarlıqları üçün redaksiya komitəsində iştirak edənlərə çox təşəkkür edirik:

Ədilə Əliyeva Məktəbəqədər təhsil müəssisəsinin müdiri
Zülfiyyə Rəsulova İbtidai sinif rəhbəri
Atabəy Quliyev Orta təhsil müəssisəsinin müdiri
Xədicə Cəfərova İngilis dili fənni üzrə koordinator
Aysel Əliyeva Kolleci Məsləhətçi
Nelson Urreqo Məktəbin direktoru
Nərgiz Tağıyeva 7i2 sinif şagirdi
Koroğlu Rəhimli 8R1 sinif şagirdi
Leyla Qasımova 10i sinif şagirdi
Nuray Bayramova 6i2 sinif şagirdi
Suri Hüseynova 6i2 sinif şagirdi
Leyla Məmmədova 6i1 sinif şagirdi
Bella Bülbül 6i1 sinif şagirdi
Duru Asılıskender 8i2 sinif şagirdi

İcraçı direktorumuz Aygün Mikayılovaya və Əməliyyatlar üzrə rəhbər Tural Abbasova göstərdikləri etimad və əvəzsiz dəstəyə görə təşəkkür edirik!